17 aprel 2013-cü il tarixində, Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfirin iqamətgahında Yaponiya hökumətinin Ümumi Qrant Yardımı Proqramı çərçivəsində həyata keçiriləcək "Meliorasiya və Suvarma Avadanlıqlarının Təkmilləşdirilməsi" layihəsi üzrə mübadilə ediləcək notanın və qrant razılaşması üzrə sənədin imzalanma mərasimi keçirilmişdir.

Yuxarıda adı qeyd olunan layihə üzrə mübadilə olunacaq notanı Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Şusuke Vatanabe və Azərbaycan Respublikası Baş Nazirin Müavini Zati-aliləri cənab Abid Şərifov imzalamışdır. Sözü gedən layihə üzrə Qrant Razılaşmasını isə Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyinin Özbəkistan İdarəsinin rəhbəri cənab Masao Shikano və Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Səhmdar cəmiyyətinin Sədri cənab Əhməd Əhmədzadə imzalamışdıdır.

Layihənin əsas məqsədi Ağcabədi, İmişli, Beyləqan və Füzuli rayonlarda meliorasiya və suvarma avadanlıqlarını təkmilləşdirməklə (yeni ekskavatorlar, buldozerlər və sairə bu kimi avadanlıqların təchizi), qismən də olsa Azərbaycanın kənd təsərrüfat sahəsinin inkişafına töhfə verməkdir. Layihənin ümumi məbləği **¥ 777,000,000 (təxminən 7.45 ABŞ dolları) Yapon yeni** təşkil edir.

Baş Nazirin Müavini Zati-aliləri cənab Abid Şərifov və Yaponiyanın Səfiri cənab Şusuke Vatanabe arasında nota mübadiləsi



Cənab Əhməd Əhmədzadə (Meliorasiya və Su Təsərrüfatı SC) və cənab Masao Şikano (JİCA) arasında qrant razılaşmasının mübadiləsi

